**AZƏRBAYCAN RESPRUBLİKASININ**
**PREZİDENTİ, MÖHTƏRƏM**

**İLHAM ƏLİYEV CƏNABLARINA**

**Surəti:** **AZƏRBAYCAN RESPUBLİKASININ İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİLİ (OMBUDSMAN) XANIM E. SÜLEYMANOVAYA**

**Surəti:** **AZƏRBAYCAN RESPUBLİKASI DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ CƏNAB H. ORUCOVA**

**Surəti:** **AZƏRBAYCAN RESPRUBLİKASININ MİLLİ TƏHLÜKƏSİZLİK NAZİRİ GENERAL-LEYTENANT E. MAHMUDOVA**

**Surəti:** **AZƏRBAYCAN RESPRUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRİ GENERAL-POLKLVNİK R. USUBOVA**

**Surəti:** **AZƏRBAYCAN RESPRUBLİKASININ BAŞ PROKURORU CƏNAB Z. QARALOVA**

Qazax şəhəri, Ş. Çobanov küçəsi ev 11 ünvanında yaşayan Abdullayev Elmar Məcid oğlu

Bakı şəhəri, Səbail rayonu, İ. Ağayev küçəsi ev 3, mənzil 138 ünvanında yaşayan Nəbiyev Səməd Feruz oğlu

Bakı şahari, Əzizbəyov rayonu, Buzovna qəsəbəsi, G. Məmmədov küçəsi, ev 9, mənzil 3 ünvanında yaşayan Allahverdiyev Zaur Rizvan oğlu

Bakı şəhəri, Xətai rayonu, Cavanşir küçəsi ev 36, yataxana 6 ünvanında yaşayan Məmmədov Rövşən Sabir oğlu

Bakı şəhəri, Aydəmirov Fikrət Camal oğlu

Bakı şəhəri, Nərimanov rayonu, Ə. Əliyev küçəsi ev 19 «A», mənzil 1 ünvanında yaşayan Vəzirov Eldar Ağa oğlu

Bakı şəhəri, Səbail RPİ Neftçilər prospekti 1/29
pasport qeydiyyatında olan
Qədadov Omar Həsənoviç

Bakı şəhəri, Qaradağ rayonu, Lökbatan qəsəbəsi,
Niftaliyev küçəsi ev 35, mənzil 16 ünvanında
yaşayan Amid Abdulov

Bakı şəhəri, Binəqədi rayonu, A. Məmmədov
küçəsi ev 115, mənzil 53 ünvanında yaşayan
Qasımov Ramil Vahid oğlu

Bakı şəhəri, Binəqədi rayonu, A. Məmmədov
küçəsi ev 115, mənzil 53 ünvanında yaşayan
Qasımov Mahmud Vahid oğlu

# ŞİKAYƏT ƏRİZƏSİ

**Möhtərəm Cənab Prezident!**

Biz, bir qrup Azərbaycan vətəndaşı başımıza gələn və aşağıda göstərəcəyimiz bir sıra qanun pozuntusu və açıq-aydın məmur özbaşınalıqla bağlı Sizə müraciət eləmək məcburiyyəti qarşısında qalmışıq.

Sözügedən qanunsuz hərəkətlər bizə qarşı birbaşa olaraq dövlət məmurları tərəfidən edilmişdir. Həmin məmurlar öz hərəkətlərini Bakı şəhəri, Nərimanov rayonunun ərazisində yerləşən Cümə (Əbu Bəkr) Məsçidində törədilən partlayışla əlaqələndirirlər. Hər bir Azərbaycan vətəndaşı kimi, biz də bu işlə bağlı cinayətkarların tezliklə yaxalanaraq qanun qarşısında cəzalandırılmalarının tərəfdarıyıq və bu işdə hər hansı bir dövlət orqanına edə biləcəyimiz istənilən köməyi əsirgəmirik. Lakin hesab edirik ki, göstərilən hadisə heç bir dövlət məmuruna əsas vermir ki, istənilən hüquq və mənəvi, o cümlədən Konstitusyon və beynəlxalq normalara zidd olmaqla, bizim şəxsiyyətimizi alçaldaraq, mənəvi istirablarımıza səbəb olan işkəncələr versin. Belə ki, məmurlar tərəfindən bizə qarşı edilən özbaşınalıq faktlarını olduğu kimi nəzərinizə çatdırırıq.

Mən, Abdullayev Elmar Məcid oğlu 25.08.2008 tarixdə saat $10^{30}$ radələrində Badamdar qəsəbəsində olarkən PPX-nin iki əməkdaşı tərəfindən saxlanılaraq izahat alınması üçün Səbayıl rayonu 8-ci polis bölməsinə gəlməli olduğumu bildirdilər. Həmin bölməyə daxil olan kimi oranın əməkdaşları mənimlə çox kobud rəftar edərək məni bir otaga saldılar. Orada **rəis müavini deyilən kəs** «Bunun saqqalini qirxin!» deyərək hökmlə əmr etdi. Buna etiraz edərək, bu qanunsuz olduğunu, eləcədə bütün sənədlərim, yəni şəxsiyyət vəsiqəsi, xarici pasport və sürücülük vəsiqəm saqqallı şəkillərnən olduğunu bildirdim. Lakin buna məhəl qoyan olmadı. Mən bildirdim ki, bu bizim İslam dinimizə uyğun olaraq mənim haqqımdır və heç bir qanunlada

qadağan olunmayıb. Lakin onlar «biz belə bir din tanımırıq» deyərək, qandalları çıxararaq «Səni qandallayıb yerə yıxmalı olsaq da belə saqqalını qırxacağıq» dedilər. Polis məmurları öz çirkin əməllərini etdikdən sonra məni və mənim kimi bir neçə adamı 7-8 saat ərzində istehza ilə ələ saldıqdan sonra buraxdılar.

Mən, Nəbiyev Səməd Feruz oğlu Bakının Badamdar qəsəbəsində yaşayıram. 25.08.2008-ci il tarixdə Əlisa adlı sahə müvəkkili mənə zəng edərək Səbayıl rayonu 8-cı polis bölməsinə gəlməyimi bildirdi. Mən həmin tarixdə səhər saat $10^{30}$-da polis bölməsinə gəldim. Girişdə mənim şəxsiyyət vəsiqəmi aldılar. Bundan sonra məndən Əbu-Bəkr məscidində baş verən partlayışla əlaqədar olaraq izahat alındı. Foto şəkilimi zəkib məni yan otağa kezirib zorla saqqalımı qırxdılar. Mənim etirazıma baxmayaraq bu əmrin yuxarıdan (yəni nazirlikdən) olduğu mənə bildirildi. Bundan sonra mənim barmaq izlərimi götürüb məni bir nezə saat bölmədə saxladıqdan sonra Səbayıl rayonu baş polis idarəsinə apardılar. Orada məni butun günü saxlayaraq axşam saat $10^{30}$-da buraxdılar. Bu proseslərə rəis müavini **Namiq** adlı şəxs rəhbərlik edirdi.

Mən, Allahverdiyev Zaur Rizvan oğlu 27.08.2008-ci il tarixdə Bakı şahari, Əzizbəyov rayonu, Buzovna qəsəbəsi, G. Məmmədov küçəsi, ev 9, mənzil 3 ünvanında yerləşən evimdə olarkən axşam saat $20^{00}$ radələrində **Şahin** adlı sahə müvəkkili evimə zəng edərək məni Əzizbəyov rayon polis idarəsinin 2-ci polis bölməsinə çağırdı. Orada **Nasir** adlı rəis müavini mənə bildirdi ki, Nərimanov rayonunun ərazisində yerləşən Cümə (Əbu Bəkr) Məsçidində törədilən partlayışı törədən cinayətkarların tapılması ilə əlaqədar həmin Məçitdə ibadət edən adamlardan tanıdıqlarımı polis bölməsinə dəvət etməliyəm. Növbəti gün, yəni 27.08.2008-ci il tarixdə saat $10^{00}$-da mən 6 nəfər başqa yoldaşlarla birlikdə həmin bölməyə yollandıq. Orada bizim şəkillərimizi çəkdilər, izahat və əl izlərimizi götürdülər. Sonra bölmənin **Əzimov Seyfulla** adlı rəisi məni öz otağıma çağıraraq mənim və 6 nəfər mənimlə gələn yoldaşların hamısının saqqalı qırxılmalıdır. Bizim buna etirazlarımıza baxmayaraq hamımızın saqqalları zorla qırxıldı.

Mən, Mən Məmmədov Rövşən Sabir oğlu 24.08.2008 tarixdə gündüz saat təqribən $12^{00}$ – $13^{00}$ radələrində Bakının Badamdar qəsəbəsində yolda gedərkən sahə müvəkkili tərəfindən saxlanıldım. Məndən yaşadığım ünvan götürüldükdən sonra mənə 25.08.2008 tarixdə Səbayıl rayonu 8-ci polis bölməsinə gəlmək bildirildi. Mən bununla əlaqədar deyilən tarixdə 10.30-da həmən bölməyə getdim. İlk öncə məndən Əbu – Bəkr məscidində törədilmiş partlayışla əlaqədar izahat alındı. Foto şəkilimi zəkib məni yan otağa kezirib saqqalımı qırxdılar. Mənim etirazıma baxmayaraq bu əmrin yuxarıdan (yəni nazirlikdən) olduğu mənə bildirildi. Bundan sonra mənim barmaq izlərimi götürüb məni bir nezə saat bölmədə saxladıqdan sonra Səbayıl rayon polis idarəsinə apardılar. Orada dindirildikdən sonra buraxıldım.

Mən, Aydəmirov Fikrət Camal oğlu 24.08.2008 tarixdə Badamdar qəsəbəsində yerləşən evimə gedərkən Əlisa adlı sahə müvəkkili tərəfindən saxlanıldım. O mənə 25.08.2008 tarixdə səhər saat $10^{30}$-da Səbayıl rayonu 8-ci polis bölməsinə gəlməli olduğumu bildirdi. Mən həmən tarixdə polis bölməsinə gəldim. Girişdə mənim şəxsiyyət vəsiqəmi alıb içəri buraxdılar. Bundan sonra məndən Əbu Bəkr məscidində baş verən partlayışla əlaqədar

izahat alındı. Foto şəklimi çəkdilər və **Namiq** adlı polis işçisi mənə təzyiq göstərərək otaqdan çıxarıb digər otağa saldı. Burada mənim saqqalımın qırxılacağı mənə bildirildikdən sonra mənim etirazıma baxmayaraq onu məcburən qırxdılar. Mən ondan belə qanunsuz hərəkətinin səbəbini soruşduqda o, ona yuxarıdan göstəriş verildiyi haqda bildirdi. Sonra təqribən saat $15^{30}$ evə buraxıldım.

Mən, Vəzirov Eldar Ağa oğlu 26 avqust 2008-ci il tarixdə təqribən $20^{00}$ radələrində dəniz kənarı bulvarın ərazisində yerləşən «Kukla teatrı»nın yanında olarkən bir polis nəfəri yaxınlaşaraq məni ərazi üzrə polis bölməsinə dəvət etdi və biz oraya yollandıq. Orada məndən əl izləri götürüldü və mənim fotoşəkilim cəkildi. Sonra 4-5 nəfər polis işçiləri məndən tələb etdilər ki, saqqalımı qırxım. Mən razılaşmayaraq bildirdim ki, hətta şəxsiyyət vəsiqəmdə olan fotoşəkildə də saqqallıyam. Bütün etirazlarıma baxmayaraq polis işçiləri qanunsuz olaraq qol gücü tətbiq etməklə məcburi qaydada qayçı ilə saqqalımı qırxdılar.

Mən Qədadov Omar Həsənoviç 25.08.2008 tarixdə Səbayıl rayon hərbi komissarlığında olarkən $12^{30}$ radələrində 2 nəfər polis geyimində olan şəxs məni komissarlığın həyətindən bayıra səsləyib özünü Səbayıl rayon polis şöbəsinin əməkdaşı kimi qələmə verərək mənim onlarla polis bölməsinə getməyimi bildirdilər. Onlar bunun yoxlama xarakter daşıdığını bildirərək qısa bir zamanda məni evə buraxacaqlarımı bildirdilər. Mən onların sözünə inanıb onlarla Səbayıl rayonu 8-ci polis bölməsinə gəldim. İlk olaraq məndən Əbu Bəkr məscidində olan partlayışla əlaqədar izahat alındı. Mənim foto şəklimi çəkib məndən qonşu otağa keçmək tələb olundu. Mənə orada stula əyləşmək əmri verildi və mən onların bu tələbini də yerinə yetirdim. Lakin onların mənim saqqalımı qırxmaq niyyətində olduqlarını başa düşüb öz etirazımı bildirdim və onlara yaşımın 50-ni haqladığını bildirərək bu fikirlərindən vaz kezmələrini istədim. Onlara özümə qarşı ehtiram göstərmələrini tələb etdim. Lakin onlar buna məhəl qoymayıb zorla mənim saqqalımı qırxdılar. Sonra məni Səbayıl rayon polis idarəsinə apardılar. Buradan məni $18^{00}$ evə buraxdılar.

Mən, Amid Abdulov 26 avqust 2008-ci il tarixdə «Şixov» çimərliyinin ərazisində yerləşən «Dostluq» kafesində yoldaşlarımla çay içərkən polis nəfərləri bizə yaxınlaşdılar və onlarla birlikdə Səbail rayon 8-ci PB-nə getməyimizi tələb etdilər. Orada bizdən əl izləri götürüldü, fotoşəkilərimiz cəkildi və izahatlar alındı. Sonra PB-nin **Namiq** adlı rəis müavini bizi qanunsuz olaraq nalayiq sözlərlə təhqir edib saqqalımızı məcburi olaraq qırxdırdı.

Mən, Qasımov Ramil Vahid oğlu 26 avqust 2008-ci il tarixdə «Şixov» çimərliyinin ərazisində yerləşən «Dostluq» kafesində təqribən səhər saat $09^{20}$ radələrində yoldaşlarımla çay içərkən, 4 nəfər polis nəfərləri bizə yaxınlaşdılar və onlarla birlikdə Səbail rayon 8-ci PB-nə getməyimizi tələb etdilər. Orada bizdən əl izləri götürüldü, fotoşəkilərimiz cəkildi və izahatlar alındı. Sonra PB-nin **rəis müavininin** əmri ilə bizi qanunsuz saqqalımızı məcbur qaydada qırxdılar. Əgər buna müqavimət göstərsək başqa yerlərimizin də kəsiləcəyi barədə xəbərdar edildik.

Mən, Qasımov Mahmud Vahid oğlu 26 avqust 2008-ci il tarixdə «Şixov» çimərliyinin ərazisində yerləşən «Dostluq» kafesində yoldaşlarımla

çay içərkən polis nəfərləri bizə yaxınlaşdılar və onlarla birlikdə Səbail rayon 8-ci PB-nə getməyimizi tələb etdilər. Orada bizdən əl izləri götürüldü, fotoşəkilərimiz çəkildi və izahatlar alındı. Sonra PB-nin **Namiq** adlı rəis müavini bizi qanunsuz olaraq nalayiq sözlərlə təhqir edib saqqalımızı məcbur olaraq qırxdırdı.

**Möhtərəm Cənab Prezident!**

Maraqlıdır ki, məgər hər-hansı bir cinayətkarın axtarışı bir qrup ölkə vətəndaşlarının zorla saqqalının qırxılmasından ibarətdir?! Biz sadəcə olaraq İslam qayda və dəyərləri ilə yaşayan hər-bir müsəlman kimi, ALLAHA ibadət edirik, saqqal saxlamaq isə dinimizə, eyni zamanda millətimizin əzəli dəyirlərinə xas olan əlamətlərdən biridir.

Bununla belə Azərbaycan Respublikası Konstitusiyasının 18-ci maddəsinə əsasən, «Azərbaycan Respublikasında din dövlətdən ayrıdır. Bütün dini etiqadlar qanun qarşısında bərabərdir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır».

Daha sonra Konstitusiyanın 48-ci maddədə deyilir ki, «hər kəsin vicdan azadlığı vardır. Hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır».

Azərbaycan Respublikası Prezidentinin 21 iyun 2001-ci il tarixli, 512 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin yanında Dini İşlər İdarəsinin əsasında Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradılmışdır. Bu Fərmanla müəyyən edilmişdir ki, həmin komitənin əsas vəzifəsi Azərbaycan Respublikası Konstitusiyasının 48-ci maddəsinin həyata keçirilməsi üçün müvafiq şəraitin yaradılmasından, dini etiqad azadlığı ilə bağlı olan qanunvericilik aktlarına riayət olunmasına nəzarətin təmin edilməsindən ibarətdir.

Azərbaycan Respublikası 1 mart 1992-ci il tarixdən etibarən Birləşmiş Millətlər Təşkilatının üzvüdür və həmin beynəlxalq qurumun Baş Məclisinin 1948-ci il, 10 dekabr tarixli 217A (III) nömrəli Qətnaməsi ilə «İnsan hüquqları haqqında Ümumi Bəyannamə» qəbul və bəyan edilmşdir. Həmin Bəyannamənin 18-ci məddəsinə əsasən, hər bir şəxs fikir, vicdan və din azadlığı hüququna malikdir; bu hüquqa öz dinini və etiqadını dəyişmək azadlığı və öz dininə və əqidəsinə təhsil, dua, dini ayin və mərasimlər zamanı təklikdə və ya başqaları ilə birlikdə, aşkar və ya fərdi şəkildə etiqad etmək azadlığı daxildir.

Eyni zamanda bildiririk ki, Müqəddəs Qurani-Kərimdə göstərilən iki bayram: «Qurban» və «Ramazan» Bayramları ölkəmizdə ümumdövlət səviyyəsində qeyd edilməsi, hökumətimiz tərəfindən yeni-yeni məscidlərin inşa edilməsi və açılması, vətəndaşlarımızın keçmiş sovet rejimi təyziqi altında 70 il ərzində məhrum olduqları İslami dəyərlərə nail olmasının təmin edilməsi istiqamətində mühüm işlər görüldüyü bir vaxtda, bizim şəxsiyyətimizi alçaldaraq, qanunsuz şəkildə işgəncə və qol gücü tətbiq edərək zorla saqqallarımızın qırxılması Dövlətimizin dini etiqad və vicdan azadlığı

istiqamətində gördüyü mütərəqqi siyasətlə qətiyyən uyğun gəlmir və bu siyasətə qarşı tamamilə ziddir. Hesab edirik ki, Avropa, Amerika və başqa dünya ölkələrində dünya müsəlmanları saqqalla rahat yaşadıqları halda müsəlman ölkəsi olan Azərbaycanımızda müsəlmanlara qarşı edilən bu cur təyziqlər heç bir məntiqə sığmır.

**Möhtərəm Cənab Prezident!**

Biz, vətənpərvər ruhda tərbiyə almaqla, hər bir Azərbaycanlı kimi, Vətənimizi və Dövlətimizi sevməklə, onun inkişafına yönəlmiş Sizin uğurlu siyasətinizi daim dəstəkləyib Uca ALLAHdan bu işdə Sizə kömək diləyirik. Dövlətimizin məğlubiyyəti bizim məğlubiyyət, Dövlətimizin uğurları bizim uğur və fərəhimizdir. Belə olan halda, təbiidir ki, Dövlətimizin qanunlarına da hörmətlə yanaşaraq, onlara sözsüz riayət edirik. Övladlarımızı da bu ruhda tərbiyə edirik. Hesab edirik ki, hər-hansı bir vətəndaşa qarşı yol verilmiş bu cür qanun pozuntusu və haqsızlıq demokratik hüquqi dövlət kimi, Azərbaycan Respublikasının müasir dövrdə tutduğu mövqeyinə uyğun deyildir.

Yuxarıda göstərilənləri nəzərə alaraq, bu təyziq və hədələrə son qoyulması üçün bizə köməklik göstərməyinizi, həmçinin göstərilən polis məmurlarının əslində inkişaf dövründə olan Vətənimizi beynəlxalq aləmdə nüfuzdan sala biləcək özbaşınalıqlarını insan hüquqlarının və dini etiqadın kobud surətdə pozulması kimi qəbul edərək bu işdə günahkarların qanun üzrə cəzalandırılmasını Sizdən xahiş edirik.

30 avqust 2008-ci il

**DƏRİN HÖRMƏT VƏ EHTİRAMLA,**

Abdullayev Elmar Məcid oğlu

Nəbiyev Səməd Feruz oğlu

Allahverdiyev Zaur Rizvan oğlu

Məmmədov Rövşən Sabir oğlu

Aydəmirov Fikrət Camal oğlu

Vəzirov Eldar Ağa oğlu

Qədadov Omar Həsənoviç

Amid Abdulov

Qasımov Ramil Vahid oğlu

Qasımov Mahmud Vahid oğlu

BİSMİLLƏHİR-RAHMƏN-RAHİM

Almaniyada yaşayan Axundov Məmmədpaşa Arif oğluna
Azərbaycan Respulikası Bakı şəhəri Hövsan qəsəbəsi Hövsan yolu küç ev 15b mən 2 yaşayan tel N=si 00994703212464
Baxışov Faiq Kamil oğlu
Füzuli şəhəri Y. Qasımov küç ev 9 –da qeydiyyatda olan tel N=si tel N=si 00994557363740 Vəkilov İlham Robert oğlu
tərəfindən

ŞİKAYƏT

Mən Baxışov Faiq dostum Vəkilov İlhamı 30.08.2008 tarixdə evimə qonaq dəvət etmişdim. Saat 16.00-da sahə müvəkkili Firdovsi polis geyimində olan mayor rütbəli polislə evimə daxil oldular. Bizə heç bir bildiriş kağızı olmadan bizi Buzovna 2 saylı polis idarəsinə apardılar. Gecə saat 24.00-ə qədər bizi orada saxladıqdan sonra bizdən izahat alıb ( bizim qohum və əqrəbamız haqda olan məlumat) . Bundan sonra bizim etirazlarımızın əksinə bizim saqqallarımızı qırxdılar. Bütün bunların səbəbini soruşduqda yuxarıdan göstəriş var deyə cavab verdilər.

Sizdən xahiş edirik ki, bizim problemlərimizi avropadakı insan haqlarını qoruyan təşkilatlara və avropa mediasına çatdırasınız .

Hörmətlə

İmza Baxışov F.K.

Vəkilov İ.R

To: Mammadpasha Akhundov
From: Faig Baxishov
Ilham Vakilov

GRIEVANCE

On 30.08.08 I Faig Baxishov had invited my friend Ilham Vakilov to my house. At around 16:00PM district police came to my house together with major ranked police officer and without any explanation letter took us to Buzovna police station no 2.

Then despite our objections they shaved our beard by force against our will. When we asked the reason they answered that this is the order from the "top".

We hereby kindly ask you to pass this severe violation of human rights to the relevant European institutions and media.

Regards,
Faig Baxishov
Address: Hovsan distr., Hovsan yolu 15B apart. 2, Baku, Azerbaijan
Tel: 994 70 321 2464

Ilham Vakilov
Address: Y. Qasimov 9, Fizuli city, Azerbaijan
Tel: 994 55 7363740

*<u>BISMİLLƏHİR-RAHMƏN-RAHİM!</u>*

Almaniyada yaşayan  Axundov Məmmədpaşa Arif oğluna
Azərbaycan Respulikası Bakı şəhəri Xətai PR-ti ev 26 mən 5 – də
yaşayan tel N=si 00994556543510 İsmayılov Səyəddin İsa oğlu
tərəfindən

Şikayət

Bu məktubumla ve aşağıdakı imzamla yazıb təsdiq edirəm ki, mənə qarşı Azərbaycan Respublikası Bakı şəhərində polis tərəfindən zorakılıq halları olmuşdur. Belə ki, mən İsmayılov Səyəddin İsa oğlu 25.08.2008 tarixdə sahə müvəkkili tərəfindən Nəsimi rayon polis idarəsinə evimdən 21.00-da aparılmışam. Polis idarəsinə daxil olan kimi mülkü geyimdə olan polis rəisinin müavini Nemətov Süleyman mənə ünvanlanaraq “vəhhabi” deyə çağırdı. Mən ona “vəhhabi deyiləm” deyə cavab verdikdə o vəhhabilərin anasını təhqiramiz sözlə söydü. Bundan sonra o “hətta Allahın saqqalı yerə ensə belə onu tutub qırxaram” deyə məni hədələdi. Mən onun təhqirlərinin qarşısında susmağa üstünlük verdim. Çünki bilirdim ki, mənim hər hansı bir sözümü onlar mənə qarşı başqa cür işlədə bilərlər. O məndən heç bir izahat almadan mənə son sualı “neçə ildir saqqal saxlayırsan” verdi. Mən də “14 ildir ki, saxlayıram” deyə cavab verdim. O da öz növbəsində mənə “bu gün axırıncı gündür ki, saxlayırsan” deyə bir daha hədələdi və gətirilmiş dəlləyə əmr etdi ki, mənim saqqalımı qırxsın. Bundan sonra sahə müvəkkilinin müşayiəti ilə 21.20 evə gəldim. Səhəri gün 26.08.2008 tarixdə mən və mənim 19 yaşlı oğlum İsmayılov Zaur Səyəddin oğlu yenidən həmən polis bölməsinə çağırıldım. 10.00-da biz oğlumla oraya getdik və orada bizim (mənim bugünkü günə qədər başa düşmədiyim səbəbə görə) əl izlərimiz götürüldü. Bundan sonra onlar bizi azad buraxdılar.

Sizdən  xahiş  edirik ki, bizim problemlərimizi avropadakı insan haqlarını qoruyan təşkilatlara və avropa mediasına çatdırasınız .

Hörmətlə

İmza                                İsmayılov S.İ

To: Mammadpasha Akhundov
From: Sayeddin Ismayilov

GRIEVANCE

My name is Sayeddin Ismayilov and I live in Baku. On 25.08.2008 at around 21:00PM I was taken to Nasimi region police department. When arrived at police station deputy chief police station Suleyman Nematov met me by calling “vahhabi” When I replied that I’m not vahhabi he abusively said … all vahhabis mothers. Then he threatened me by saying I’d shave even God’s (!) beard if it reaches the earth to what I preferred to keep silence. When I said that I grow beard for 14 years he said that this is last day you do so. Then he ordered the barber invited to the police station to shave my beard off. At the next I was again invited to police station with my 19 year old son for taking finger print I was only then freed.

I hereby kindly ask you to pass this severe violation of human rights to the relevant European institutions and media.

Regards,
Sayeddin Ismayilov

Address: Khatai pr. 26 apart. 5, Baku, Azerbaijan
Tel: 994 55 6543510

*BİSMİLLƏHİR-RAHMƏN-RAHİM*

Almaniyada yaşayan Axundov Məmmədpaşa Arif oğluna
Azərbaycan Respublikası Bakı şəhəri Yeni Günəşli qəs
"D" Y \S , ev 24 mən 65 –də yaşayan tel N=si 00994556104454
Bayramov Emil Nizamoviç,
Bakı şəhəri Yeni Günəşli qəs "D" Y\S ev 24 mən 65 –də yaşayan
tel N=si 00994556734852
Bayramov Edqar Nizamoviç,
Bakı şəhəri Təbriz küç ev 55 mən 48-də yaşayan tel N=si
00994558682451 Abdullayev Zaur Mehman oğlu
tərəfindən

ŞİKAYƏT

Biz Bayramov Emil Nizamoviç, Bayramov Edqar Nizamoviç və Abdullayev Zaur Mehman oğlu 29.08.2008 tarixdə cümə günü Şəhidlər adlanan məsciddən çıxarkən post patrol polisi tərəfindən saxlanılıb Səbail rayon 9-cu polis bölməsinə aparıldıq. İlkin dindirilmədən sonra bizim əl izlərimiz götürüldü . Bundan sonra bizim fotoşəkillərimiz ( cinayət işləmiş şəxsin fotoşəkli çəkildiyi kimi) çəkildi. Daha sonra bizim etirazlarımıza baxmayaraq onlar saqqalarımızı qırxdılar. Bu işdə polis rəisi başda olmaqla polis bölməsinin bütün heyəti iştirak edirdi. Bizim düşdüyümüz vəziyyəti nəzərə alaraq sizdən xahiş edirik ki, bizim problemlərimizi avropadakı insan haqlarını qoruyan təşkilatlara və avropa mediasına çatdırasınız .

Hörmətlə

İmza Bayramov E.N

Bayramov E.N

Abdullayev Z.M

To: Mammadpasha Akhundov
From: Emil Bayramov
Edqar Bayramov
Zaur Abdullayev

# GRIEVANCE

We undersigned Emil Bayramov, Edqar Bayramov and Zaur Abdullayev upon leaving the Shahidlar mosque 29.08.2008 after usual Juma prayer were stopped by street patrolling police and taken to the Sabail region police department no 9. On 25.08.2008 at 10:30 AM I visited above stated police department. After taking our fingerprints interrogations our photos were taken. Despite our objections they shaved our beard by force against our will. The chief police department was personally participating in violating our human rights.

We hereby kindly ask you to pass this severe violation of human rights to the relevant European institutions and media.

Regards,
Emil Bayramov
Address: Yeni Gunashli "D" Y \S 24 apart. 65, Baku, Azerbaijan
Tel: 994 55 610 4454

Edqar Bayramov
Address: Yeni Gunashli "D" Y \S 24 apart. 65, Baku, Azerbaijan
Tel: 994 55 673 4852

Zaur Abdullayev
Address: Tabriz str. 55 apart. 48, Baku, Azerbaijan
Tel: 994 55 8682451

*BİSMİLLƏHİR-RAHMƏN-RAHİM*

**Almaniyada yaşayan Axundov Məmmədpaşa Arif oğluna**
**Azərbaycan Respulikası**
**Bakı şəhəri Sumqayıt şəh.9mk, ev 61 mən,47**
**yaşayan tel N=si 00994556035911 Seyidov Cəlal Vəli oğlu**
**Xırdalan şəhəri M. Hüseynzadə 15-də yaşayan tel N=00994703159336**
**İdrisov Nadir İdris oğlu**
**Bakı şəh. Binəqədi qəsbəsi İsfahani küc ev 9 –da yaşayan tel N=si**
**00994124111228 Əhmədov Hüseyn Tapdıq oğlu**
**Bakı şəh 9-cu mk. Ev 57 mən 6-da yaşayan tel N=si 00994556870674**
**Qurbanov Elman Feruz oğlu**
**Bakı şəh. Maştağa qəs Mehdi Hüseynzadə küç 36a –da yaşayan**
**Tel N=si 00997501603 Eyvazov İbrahim**
**tərəfindən**

ŞİKAYƏT

**Biz Seyidov Cəlal Vəli oğlu, İdrisov Nadir İdris oğlu, Əhmədov Hüseyn Tapdıq oğlu, Qurbanov Elman Feruz oğlu, Eyvazoz İbrahim bildiririk ki, 25.08.2008 tarixdə 18.30-da Nəsimi rayon polis idarəsinin əməkdaşları işlədiyimiz (mənim və bir neçə ibadət əhli olan iş yoldaşımın) yerə gəlib bizim onlarla polis idarəsinə getməyimizi tələb etdilər və bildirdilər ki, narahat olmağa ehtiyac yoxdur sorqu-sual etdikdən sonra buraxacaqlar. Biz onların sözünə inanıb buyurulan yerə gəldik lakin oraya daxil olduqdan sonra özümüzə qarşı tamam fərqli münasibət gördük. Belə ki, bizi təhqir etdilər, söydülər və bizi, bizə aidiyyatı olmayan bir adla, Vəhhabi deyə adlandırdılar. Bundan sonra bizə zor tətbiq edərək saqqalımı qırxdılar, halbuki bizim şəxsiyyət vəsiqələrimizdə olan şəklillərimiz saqqallıdır. Əgər bu vəsiqəni dövlətimiz veribsə onda polislərin bu özbaşınalıqları nədir. Bu insan haqları üzrə beynəlxalq hüquq normalarına imza atan dövlətin prinsipinə uyqun gəlmir.**

**Sizdən xahiş edirik ki, bizim problemlərimizi avropadakı insan haqlarını qoruyan təşkilatlara və avropa mediasına çatdırasınız .**

Hörmətlə

İmza

Seyidov C.V.
İdrisov N.İ.
Əhmədov H.T
Qurbanov E.F.
Eyvazov İ.

To: Mammadpasha Akhundov
From: Jalal Seyidov
Nadir Idrisov
Huseyn Ahmadov
Elman Qurbanov
Ibrahim Eyvazov

GRIEVANCE

On 25.08.2008 we undersigned Jalal Seyidov, Nadir Idrisov, Huseyn Ahmadov, Elman Qurbanov and Ibrahim Eyvazov were taken by policemen of Nasimi region police department right from our work places. They told us that you don't need to worry this is just normal police interrogation and they'll let us go right after this procedure. But when we arrived to police station they treated us absolutely differently. They bombarded us with abuse and called us by not our names but "vahhabis".

After this despite our objections they shaved our beard by force against our will. We explained that we appear with beard on ID photos but totally ignored us.

We hereby kindly ask you to pass this severe violation of human rights to the relevant European institutions and media.

Regards,
Jalal Seyidov
Address: 9th microdistrict 61 apart. 47, Sumgayit, Azerbaijan
Tel: 994 55 **603 5911**

Nadir Idrisov
Address: M. Huseynzade 15, Khirdalan, Azerbaijan
Tel: 994 70 **3159336**

Huseyn Ahmadov
Address: Binagadi distr. Isfahani str. 9, Baku, Azerbaijan
Tel: 994 12 **4111228**

Elman Qurbanov
Address: 9th microdistrict 57 apart. 6, Baku, Azerbaijan
Tel: 994 55 **687 0674**

Ibrahim Eyvazov
Address: Mashtaga distr. M. Huseynzade str 36A, Baku, Azerbaijan
Tel: 994 **7501603**